# *Rza DEQQƏTİ:* "Şuşada həyat geri qayıdıb və yağış altında rəqs etmək insanlar üçün sevinc hissləri yaradır"

**Ermənistan silahlı qüvvələrinin 30 illik işğalı və qəsdən törətdiyi dağıntılardan sonra Şuşa şəhərinə həyat yenidən qayıdıb. Göz yaşları və dünya musiqiçilərinin iştirakı ilə V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı başlayıb.**




AZƏRTAC xəbər verir ki, bu fikirlər dünyaşöhrətli fotoqraf Rza Deqqətinin Şuşadan çəkdiyi videopaylaşımda yer alıb.

Paylaşımda deyilir: "30 il əvvəl Qarabağdakı müharibə haqqında beynəlxalq mediaya reportaj hazırlamaq üçün Parisdən bura gəlmişdim. Şəhər erməni silahlı qüvvələrinin mühasirəsində idi və mülki vətəndaşlar raket və artilleriya hücumuna məruz qalırdılar. 1992-ci il mayın 8-də şəhərin işğalından sonra Azərbaycan mədəniyyətinin bütün nişanları - evlər, muzeylər, məktəblər talan olundu və dağıdıldı. Azərbaycan, nəhayət, 2020-ci il noyabrın 8-də şəhəri geri qaytardı. Yenidənqurma işləri başladı və Şuşa musiqi və poeziya şəhəri, Azərbaycanın mədəniyyət paytaxtı elan olundu. Şuşada həyat geri qayıdıb və yağış altında rəqs etmək insanlar üçün də sevinc hissləri yaradır".

Azərbaycan.- 2022.- 14 may.- S.5.